AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin*
*12.09 2022–ci il tarixli F-531 №- li əmri ilə*
*təsdiq edilmişdir.*

ƏSLİ İLƏ DÜZDÜR

AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ
İNFORMASİYA VƏ VƏTƏNDAŞLARA XİDMƏT ŞÖBƏSİ

**“Mühafizəçi”**

**peşə hazırlığı üzrə səriştəəsaslı modul tipli**

**Təhsil Proqramı (Kurikulum)**

**Bakı – 2022**

# Mündəricat


1. Terminlər, simvollar və ixtisarlar ........ 3

2. Ümumi Məlumat ........ 4

3. Peşənin (ixtisasın) xüsusiyyəti və təsviri ........ 6

4. Vəzifə və funksiyalar ........ 7

5. Tələb olunan bilik və bacarıqlar, müstəqillik və məsuliyyət səviyyəsi ........ 8

6. Tədris planı (modul strukturu) ........ 10

7. Modul spesifikasiyası ........ 11

8. Attestasiya və qiymətləndirmə ........ 18

9. Tədris edəcək pedaqoji heyətə qoyulan tələblər ........ 19

10. Tövsiyə edilən dərslik və avadanlıq siyahısı ........ 20

## 1. Terminlər, simvollar və ixtisarlar

**Peşə standartı** – konkret peşə sahəsi üzrə işçinin yerinə yetirməli olduğu işin məzmununa və əmək şəraitinə qoyulan minimum tələblərin məcmusudur;

**Sertifikat** – müəyyən istiqamət üzrə təlim nəticələrinin əldə edilməsini təsdiq edən sənəd;

**Bacarıq** – tapşırıqların yerinə yetirilməsi və problemlərin həll edilməsi üçün biliklərin tətbiqini və təcrübənin istifadəsini özündə birləşdirir. Bacarıq minimal vaxt və enerji (və ya hər ikisini) sərf etməklə, əvvəlcədən müəyyən edilmiş nəticələrin əldə olunmasına yönəldilmiş xüsusiyyətdir.

**Bilik** – təlim (öyrənmə) prosesi vasitəsilə informasiyanın mənimsənilməsinin nəticəsidir. Bilik fəaliyyət və ya təhsil sahəsi ilə bağlı fakt, prinsip, nəzəriyyə və praktikanın əsasını təşkil edir.

**Kompetensiya (səriştə)** – şəxsin müvafiq bilik, bacarıq və yanaşmadan istifadə edərək, fəaliyyəti peşəkar mühitdə tələb olunan standartlara uyğun icraetmə bacarığıdır;

**Təlimin nəticəsi** – təhsilalanın nələri bildiyini, mənimsədiyini və təlim prosesini bitirdikdən sonra nəyi edə biləcəyini göstərən, eləcə də bilik, bacarıq və kompetensiyaları (səriştələri) müəyyən edən göstəricilərdir;

**Qiymətləndirmə meyarları** – tədris kursu və ya modulu çərçivəsində nəzərdə tutulan təlim nəticələrini təhsilalan tərəfindən hansı səviyyədə mənimsənilməsini müəyyən etmək məqsədi ilə qiymətləndirən tərəfindən istifadə olunan ölçü vahidləridir;

## 2. Ümumi Məlumat

Bu təhsil proqramı təhsilalanların müvafiq sahə üzrə bilik, bacarıq və vərdişlərə yiyələnmələrinə imkan yaratmaqla onları ictimai həyat və səmərəli əmək fəaliyyətinə hazırlayacaq. Proqramı uğurla başa vuran təhsilalanlar müasir əmək bazarında işçidən tələb olunan və işəgötürənlər tərəfindən müəyyən edilən səriştələrə yiyələnəcəklər.

Təhsil proqramı Azərbaycan Respublikasının "Təhsil haqqında" və "Peşə təhsili haqqında" qanunlarına, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi", "Peşə təhsilinin dövlət standartları"nın tələblərinə uyğun hazırlanmışdır.

Təhsil proqramının (kurikulumun) məqsədi təhsilalanları müvafiq ixtisas üzrə peşə fəaliyyəti üçün tələb olunan nəzəri və praktiki bilik və bacarıqların aşılanmasıdır. Proqramda verilən saatların miqdarından asılı olaraq təhsilverənlər mövzuların ardıcıllığının seçimində və onlara ayrılan saatların bölgüsündə sərbəstdirlər. Təhsilalanların hazırlıq səviyyələrindən və maraq dairələrindən asılı olaraq mövzuların təlim ardıcıllığını dəyişdirilə və onlara ayrılan saatların ümumi miqdarı saxlamaqla mövzular üzrə bölgüsü dəyişdirilə bilər.

| | |
|---|---|
| **Təsnifat üzrə ixtisasın şifri (kodu):** | 030221 |
| **İxtisasın adı:** | Mühafizəçi |
| **Məşğulluq təsnifatında kodu:** | 5414 |
| **İqtisadiyyatın əhatə olunan sahələri:** | İqtisadiyyat, xidmət, avtomatika və idarəetmə |
| **Qəbul tələbləri:** | Tam orta təhsil |
| **Peşə üçün spesifik tələblər:** | • Peşənin tələb etdiyi işlərin icrası üçün fiziki güc və ölçülərə sahib olmaq |
| **Təhsil müddəti:** | 60 saat |
| **Kursun məzmunun ümumi təsviri:** | "Mühafizəçi" təliminin məqsədi təlim iştirakçılarına mühafizə xidmətinin təşkili üçün texniki, psixoloji, tibbi və fiziki hazırlıq üzrə nəzəri biliklərin və praktiki vərdişləri qazandırmaqla |

| | |
|---|---|
| | onların səriştəli kadr olaraq yetişdirilməsini təmin etməkdir. |

## 3. Peşənin (ixtisasın) xüsusiyyəti və təsviri

"Mühafizəçi" təlimi iştirakçılara iqtisadiyyatın müxtəlif sahələri üzrə fəaliyyət göstərən istehsalat və xidmət müəssisələrdə mühafizə xidmətinin düzgün tətbiqi ilə bağlı ilkin bilik və bacarıqların aşılanmasına xidmət edir. Təlim ərizndə iştirakçılara mühafizə xidmətinin təşkili üçün tələb olunan texniki, psixoloji, tibbi və fiziki hazırlıq üzrə nəzəri biliklər tədris ediləcək, həmçinin mühafizə xidmətinin icrası ilə bağlı praktiki vərdişlərə yiyələnməsi təmin ediləcəkdir. Təlimin məqsədiq müxtəlif işəgötürənlərdə müvafiq vəzifədə çalışmağa qabil mütəxəssis hazırlamaqdır.

**Məşğulluq imkanları:**

Təhsilini başa vurduqdan sonra məzun iqtisadiyyatın müxtəlif sahələri üzrə fəaliyyət göstərən istehsalat və xidmət müəssisələrdə mühafizəçi olaraq vəzifə təlimatından irəli gələn müxtəlif işlərin icrası üzrə çalışa biləcəkdir. Müvafiq təcrübə, bacarıq və təhsil əldə etdikdən sonra rəhbər və daha yüksək texniki vəzifələrə yüksəlmək imkanları var.

## 4. Vəzifə və funksiyalar

“Mühafizəçi” proqramını bitirən məzun çalışdığı müəssisə və təşkilatlarda aşağıdakı vəzifə və funksiyaların icrasını həyata keçirə biləcəkdi:

A. Təhlükəsizliklə bağlı risklərin təhlil edilmək və qiymətləndirilmək;
B. Mühafizəçinin gündəlik vəzifələrinin həyata keçirilməsini;
C. Elektron mühafizə vasitələrindən və CCTV-dən istifadə etmək;
D. Keçidə nəzarət etmək və qonaqları qarşılanmaq;
E. Patrul keşiyini həyata keçirilmək;
F. Fövqəladə hallar zamanı insanları təxliyə etmək;
G. Qorunan obyektə daxil olan şəxsləri və avtonəqliyyat vasitələrini yoxlamaq;
H. Müxtəlif bədən xəsarəti almış şəxslərə ilk tibbi yardım göstərmək;
I. Fövqəladə hallarda (yanğın və s.) fərdi mühafizə vasitələrindən (yanğınsöndürəndən istifadə və s.) istifadə edərək ilkin müdaxilələr etmək

## 5. Tələb olunan bilik və bacarıqlar, müstəqillik və məsuliyyət səviyyəsi

"Mühafizəçi" proqramınının tədrisi müdavimlərə aşağıdakı səriştələrin əldə edilməsini təmin edəcəkdir.

Təlim sonunada müdavilim əldə ediləcəyi biliklər:

- Mühafizə xidmətinin fərdi və korporativ vəzifə və öhdəliklərini;
- obyektlərin, binaların, ofislərin və digər ərazilərin mühafizəsi üsullarını;
- şirkətlərin təhlükəsizlik siyasətini və prosedurlarını;
- risklərin öyrənilməsində və idarə olunmasında, itkilərin qarşısının alınmasında mühafizə xidmətinin xüsusi rolunu;
- obyektlərin mühafizəsində təhlükəsizlik sistemini, təhlükəsizlik sisteminin komponentlərini, fiziki baryerlər və maneələr, onların təhlükəsizlik sistemində rolunu;
- təhlükəsizlik üzrə siyasət və prosedurları, onlara işçilər tərəfindən necə riayət olunmasını;
- Azərbaycan Respublikasında özəl mühafizə fəaliyyəti haqqında Qanunun müddəalarını;
- elektron texniki - mühafizə vasitələrinin təyinatı, fövqəladə hallarda təxliyə metodlarını;
- ilk tibbi yaıdım göstərilməsi metodlarını;
- yanğın söndürmənin əsaslarını;
- əlbəyaxa döyüş (zərərləşdirmə, saxlanılma və xüsusi məntəqəyə aparılma) və özünü müdafiə

Təlim sonunada müdavilim əldə ediləcəyi bacarıqlar:

- Təhlükəsizliklə bağlı risklərin təhlil edilməsini və qiymətləndirilməsini;
- düzgün mühafizə üsullarının seçilməsini;
- mühafizəçinin gündəlik vəzifələrinin həyata keçirilməsini;
- mühafizə olunan obyektin fiziki baryerlərlə və digər üsullarla qorunmasını;
- elektron mühafizə vasitələrindən və CCTV-dən düzgün istifadə edilməsini;
- keçidə nəzarət etməyi və qonaqlann qarşılanmasını;

- patrul keşiyinin effektiv şəkildə həyata keçirilməsini;
- mühafizə müəssisəsi tərəfindən xidməti istifadə üçün verilmiş xüsusi vasitələrdən təyinatı üzrə düzgün istifadə etməyi;
- fövqəladə hallar zamanı insanları təxliyə etməyi;
- qorunan obyektə daxil olan şəxslərin və avtonəqliyyat vasitələrinin yoxlanılmasını;
- elektron mühafizə vasitələrindən düzgün istifadə etməyi;
- müxtəlif bədən xəsarəti almış şəxslərə ilk tibbi yardım göstərməyi;
- lazım olduğu təqdirdə əlbəyaxa döyüş, əlbəyaxa döyüşün üsullarının istifadəsi və özünümüdafiə üsullarından effektiv istifadə etməyi;
- yanğınsöndürəndən düzgün istifadə etməyi və kiçik həcmli yanğınları söndürməyi.

## 6. Tədris planı (modul strukturu)

| № | Modullar/Fənlər adı | Saatların miqdarı |
|---|---|---|
| 1 | Azərbaycan qanunvericiliyinin əsasları (hüquqi hazırlıq) | 3 |
| 2 | Xüsusi hazırlıq | 15 |
| 3 | Psixoloji hazırlıq | 7 |
| 4 | Texniki hazırlıq | 15 |
| 5 | Tibbi hazırlıq | 6 |
| 6 | Fiziki hazırlıq | 5 |
| 7 | Yanğın söndürmənin əsasları | 4 |
| | | |
| 8 | İmtahan | 3 |
| | Yekun | 60 |

## 7. Modul spesifikasiyası

Tədrisi nəzərdə tutulan modulların təlim nəticələri və məzmun olaraq təsviri.

| | |
|---|---|
| **Modulun adı:** | **Azərbaycan qanunvericiliyinin əsasları (hüquqi hazırlıq)** |
| **Modulun tədris saatı:** | 3 saat |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra mühafizə xidməti üçün tələb olunan hüquqi biliklərə yiyələnəcəkdir. | |
| **Mövzular** | **Mövzuların məzmunu** |
| Azərbaycan Respublikasının Konstitusiyası - dövlətin əsas qanunudur | Azərbaycan Respublikasının Konstitusiyası anlayışı. Konstitusiyanın əsas funksiyaları. Azərbaycan Respublikasının Konstitusiyasının xüsusiyyətləri. Azərbaycan Respublikasının Konstitusiyasında əks olunan əsas insan və vətəndaş hüquqları və azadlıqları. Azərbaycan dövlətinin ərazisi, rəmzləri, dövlət dili. Azərbaycan Respublikasında dövlət hakimiyyətinin bölünməsi prinsipi. |
| Hüquq pozuntusunun növləri | Hüquq pozuntusu anlayışı. Hüquq pozuntularının ictimai təhlükəlilik dərəcəsinə görə bölünməsi. Cinayətlər, inzibati xətalar, intizam xətaları, mülki-hüquq pozuntuları. Hüquqi məsuliyyətin növləri. Cinayət hüququnun əsasları. Cinayət tərkibi. Cinayət hüququnun prinsipləri. Cəzanın növləri. Sərxoş vəziyyətdə törədilən cinayətə görə məsuliyyət. Cinayət qanununun məkana görə və zamana görə qüvvəsi. |
| Zəruri müdafiə, Azərbaycan Respublikasının Konstitusiyasının 26-cı maddəsinə əsasən | Zəruri müdafiə anlayışı. Zəruri müdafiə hallarının hüquqi əsasları. Zəruri müdafiə həddi anlayışı. Zəruri müdafiə həddini aşma anlayışı. Zəruri müdafiədə qəsd edənə zərər vurmaq yolu ilə ictimai təhlükəli qəsdin qarşısının alınması. Zəruri müdafiə ilə bağlı məhkəmə təcrübəsi. Qüvvədə olan CM-nin 36-cı maddəsində zəruri müdafiəyə aşağıdakı məzmunda anlayış verilir: "Zəruri müdafiə vəziyyətində, yəni özünü müdafiə edənin və ya başqa şəxsin həyatını, sağlamlığını və hüquqlarını, dövlətin və cəmiyyətin mənafelərini qəsd edənə zərər vurmaq yolu ilə ictimai təhlükəli qəsddən qoruyarkən törədilmiş hərəkət, zəruri müdafiə həddini aşmamışdırsa, cinayət sayılmır." (CM-nin 36-cı, MM-nin 563-cü, İXM-nin 19-cu maddəsi zəruri müdafiəyə anlayış verir // Azərbaycan Respublikasının Məcəllələr Külliyatı, I xüsusi buraxılış, s. 88, 483. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi, Bakı 2007). |
| Təhlükəsizlik və insan haqları | Beynəlxalq insan haqları anlayışı. İnsan haqlarının |

| | |
|---|---|
| | hüquqi əsasları. Insan haqlarının pozulması nə deməkdir. Təhlükəsizliklə bağlı olan insan haqlarına aid standartlar hansılardır. "Təhlükəsizlik və İnsan Haqları üzrə Könüllü Prinsiplər" nədir. "Güc tətbiqinin ardıcıllığı" prinsipi. İnsan Hüquqları haqqında Ümumi Bəyannamə. BMT-nin strukturu. |
| Özəl mühafizə haqqında qanun | "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Qanunun təyinatı. Özəl mühafizə fəaliyyəti haqqında qanunvericilik. Özəl mühafizə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar göstərilən mühafizə xidmətlərinin növləri. Özəl mühafizə müəssisəsi anlayışı. Hüquqi şəxsin mühafizə bölməsi anlayışı. Mühafizə olunan obyekt anlayışı. Buraxılış rejimi anlayışı. Obyektdaxili rejim anlayışı. Mühafizəçiyə münasibətdə irəli sürülən tələblər. Özəl mühafizə fəaliyyətinin həyata keçirilməsində fiziki qüvvənin və ya xüsusi vasitələrin tətbiqi şərtləri və hüdudları. Özəl mühafizə müəssisəsinin dövlət orqanları ilə qarşılıqlı əlaqələri. |
| Mühafizəçinin hüquq və vəzifələri | Mühafizəçinin hüquq və vəzifələri. Özəl mühafizə fəaliyyətini həyata keçirən şəxslərə qarşı qadağalar. Mühafizəçinin geyim forması və mühafizəçi vəsiqəsi. Özəl mühafizə fəaliyyəti göstərən şəxslərin sosial və hüquqi müdafiəsi. İşçilər arasında əxlaq normalara riayət olunması. |

| **Modulun adı:** | **Xüsusi hazırlıq** |
|---|---|
| **Modulun tədris saatı:** | 15 saat |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra mühafizə xidməti üçün tələb olunan hüquqi biliklərə yiyələnəcəkdir. | |
| **Mövzular** | **Mövzuların məzmunu** |
| Mühafizə xidmətinin əsasları | "Təhlükəsizlik" anlayışı. Sənayedə təhlükələr. Itkiiərin növləri. Mühafizə xidməti əməkdaşının rolu, funksiyası, imici və şəxsi keyfiyyətləri. Mühafızə xidmətinin əsas funksiyaları. Mühafizə fəaliyyətinin prinsipləri. |
| Təhlükəsizliklə bağlı risklərin qiymətləndirilməsi və idarə olunması | "Risk" anlayışı. Risklərin dərəcəsi və ehtimallarının hesablanması. Riskin qiymətləndirilməsi. Risklərin idarə olunması prosesi: qorunan əmlakın müəyyən edilməsi və dəyərləndirilməsi, təhlükələrin müəyyən edilməsi və riskin qiymətləndirilməsi, bu təhlükələrə qarşı təhlükəsizlik tədbirlərinin müəyyən edilməsi. |

| | |
|---|---|
| Təhlükəsizlik sistemi. Keçid nəzarətin üsul və qaydaları | Təhlükəsizlik sisteminin əsas komponentləri. Fiziki baryerlər - təhlükəsizlik sisteminin bir hissəsi kimi. Fiziki baryerlərin əsas məqsədləri və növləri. Qanunsuz daxil olmanın qarşısını alan vasitə kimi fiziki baryerin təyinatı. "Dərinliyə müdafiə": 1-ci müdafiə xətti (ərazinin perimetri); 2-ci müdafiə xətti (binanın perimetri); 3-cü müdafiə xətti (daxili müdafiə). Keçidə nəzarətin üç mərhələsi. |
| Patrul keşiyi | Patrul keşiyi anlayışı. Patrul keşiyinin xüsusi mühafizə rejimi kimi rolu. Patrul keşiyinin əsas məqsədləri. Patrul keşiyinin xüsusi üsulları və metodları. Patrul marşrutunun müəyyən edilməsi. Patrul keşiyi zamanı aparılan qeydiyyat. Patrul keşiyi zamanı "gözlənilməz olmaq" prinsipi |
| Nəzarət-buraxılış məntəqəsində xidmətin aparılması | Nəzarət-buraxılış və qonaqların qarşılanması məntəqəsində (resepşn) xidmət aparan mühafizə xidməti əməkdaşının vəzifələri. Şəxslərin və ya nəqliyyat vasitələrinin mühafizə olunan obyektə nəzarətsiz girişi (çıxışı), habelə bu obyektə əmlakın nəzarətsiz gətirilməsi və ya bu obyektdən əmlakın nəzarətsiz çıxarılması imkanlarını istisna edən qayda və tədbirlər. Şəxsiyyəti təsdiq edən sənədlər. Qonaqların qarşılanması və müşayət olunması. Professional etika və davranış qaydaları. Telefonda ünsiyyət qaydaları. |
| Mühafizə olunan obyektə qeyri-qanuni daxil olmaq cəhdinin qarşısının alınması | Qeyri-qanuni daxil olmaq cəhdinin məqsədləri. Mühafizə olunan obyektlərdə hüquqa zidd hərəkətlər törətmiş və ya mühafizəçiyə qarşı fiziki qüvvə işlədən şəxslərin fiziki qüvvə tətbiq etməklə hadisə yerində saxlanılması. Qeyri-qanuni daxil olmaq cəhdinin qarşısının alınmasında yerli hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqə. |
| Şəxsi yoxlamanın aparılması. Avtonəqliyyat vasitələrinin yoxlanılması qaydaları | Şəxsi yoxlamanın aparılmasının əsas prinsipləri. Şəxsi yoxlamanın aparılmasına dair prosedur qaydalar. Şəxsi yoxlamanın aparılması üsulları. Avtonəqliyyat vasitələrinin yoxlanılması qaydaları. Avtomaşınların yoxlanılması zamanı mühafizəçilər üçün təhlükəsizlik qaydaları. Sürücünün dindirilməsi. |
| Baş vermiş hadisələrin qeydiyyatı. Məxfi məlumatların qorunmasına dalr tədbirlər | Baş vermiş hadisələrin qeydiyyatı. Yazılı məruzə və izahatların düzgün tərtib olunması. Məlumatların təsnifatı. Məxfı məlumatların qorunmasına dair tədbirlər. Gərəksiz sənədlərin məhv olunması. "Təmiz stol" siyasəti. |
| Fövqəladə hadisələr və onların növləri | Adi təhlükəsizlik prosedur anlayışları. Adi təhlükəsizlik prosedurlarının məqsədi. Fövqəladə hadisə anlayışı. Fövqəladə hadisələrin növləri. Fövqəladə hadisə |

| | |
|---|---|
| | zamanı tədbirlərin planlaşdırılması. Fövqəladə prosedurların məqsədi. Təxliyə anlayışı. Fövqəladə hallar zamanı insanların təxliyəsi qaydaları. Toplanış məntəqəsi anlayışı. Toplanış məntəqəsinin yoxlanılması. |
| Partlayıcı qurğular. Partlayıcı qurğuların əsas əlamətləri | Partlayıcı qurğular. Partlayıcı qurğuların əsas əlamətləri. Beynəlxalq terrorçuluq. Şübhəli əşyaların aşkar edilməsi. Partlayıcı qurğuların zahiri əlamətləri. Partlayıcı qurğuların aşkar edilməsinə dair prosedur qaydalar. |
| Partlayışla, girova alma ilə terrorizmlə hədələmə zəngləri | Bombanın partladılmasına dair hədələmə zənglərinin növləri. Telefonda terrorçu ilə danışıqların aparılması üsulları. Zəng edənə verilməli olan suallar. Xüsusi formanın doldurulması. Partlayışla hədələmə zəngi ilə əlaqədar insanların evakuasiyası (təxliyə). |
| Cinayətkarlıq və beynəlxalq terrorçuluq | Müasir terrorizmin tarixi və tendensiyaları. |

| **Modulun adı:** | **Psixoloji hazırlıq** |
|---|---|
| **Modulun tədris saatı:** | 7 saat |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra mühafizə xidməti üçün tələb olunan psixoloji hazırlıq ilə bağlı biliklərə yiyələnəcəkdir. | |
| **Mövzular** | **Mövzuların məzmunu** |
| Mühafizə fəaliyyətində psixoloji xüsusiyyətləri | Psixi hadisələr haqqında anlayış. Psixi proseslər və onların tənzimi. Şəxsiyyətin fərdi-psixi xüsusiyyətləri. |
| Mühafizə fəaliyyətində ünsiyyətin rolu | Ünsiyyət və onun əsas xüsusiyyətləri. Ünsiyyət prosesində yaranan çətinliklər. Rol davranışının qanunauyğunluqları. |
| Mühafizə fəaliyyətində emosional tənzimetmə məsələləri | Hisslər və hisslərin tənzimetmə funksiyası. Emosional hallar. Emosional stres. Frustrasiya. Mühafizəçidə psixoloji dözümlülüyün yüksəldilməsi yolları. Psixoloji adaptasiya və dezadaptasiya. Özünü tənzimləmə. Mühafizəçinin professioqramı: şəxsiyyətəməxsus və peşə keyfiyyətləri. |

| **Modulun adı:** | **Texniki hazırlıq** |
|---|---|
| **Modulun tədris saatı:** | 15 saat |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra mühafizə xidməti üçün tələb olunan texniki hazırlıq ilə bağlı biliklərə yiyələnəcəkdir. | |

| Mövzular | Mövzuların məzmunu |
| --- | --- |
| Elektron Mühafizə Sistemləri və onların rolu | Radioəlaqə vasitələrindən istifadə etmə qaydaları. Xəbərедici elektron mühafizə sistemləri. Aşkaredici elektron sistemlər. Qorunan obyektin perimetrinin anlayışı. Perimetr boyu qanunsuz daxil olmanı aşkar edən elektron mühafizə sistemləri. |
| Mühafizə Xəbərdarlıq Sistemləri | Kontrol nəzarət panelləri<br>İdarə klaviaturaları<br>Zona artırıcıları<br>Detektorlar<br>Xətsiz mühafizə avadanlıqları<br>Aksesuarlar |
| Yanğın Xəbərdarlıq Sistemləri | Konvenşinal kontrol nəzarət panelləri<br>Panel təkrarlayıcıları<br>Tüstü detektorları<br>İstilik detektorları<br>Kombi detektorlar<br>Natural qaz detektorları<br>Karbon-monoksid qaz detektorları<br>Temperatur detektorları<br>Yanğın beam detektorları<br>Yanğın həyəcan düymələri<br>Sirenalar |
| Yanğınsöndürmə avadanlıqları | Yanğınsöndürmə vasitələri<br>Əl Yanğınsöndürmə vasitələri<br>Avtomatik yanğınsöndürmə vasitələri |
| Girişə Nəzarət Sistemləri | Kontrol nəzarət panelləri<br>Oxuma qurğuları<br>Biometrik oxuma qurğuları<br>Elektrik kilidləri |
| Anons Sistemləri | Anons sistemləri.<br>Onların rolu, tipləri və sistemlərin qısa xülasəsi |
| Qapalı Video Müşahidə Sistemi(CCTV) | Qapalı video müşahidə sistemi(CCTV).<br>Video müşahidə kameraları<br>Linzalar<br>Yazı qurğuları<br>Svitçerlər<br>Multiplekserlər<br>Video siqnalı ötürmə üsullari |
| Radioötürücülər | Radioötürücülər.<br>Onların rolu, tipləri və sistemlərin qısa xülasəsi |

| Modulun adı: | Tibbi hazırlıq |
|---|---|
| Modulun tədris saatı: | 6 saat |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra mühafizə xidməti üçün tələb olunan tibbi hazırlıq ilə bağlı biliklərə yiyələnəcəkdir. | |
| **Mövzular** | **Mövzuların məzmunu** |
| Həkiməqədər ilk tibbi yardımın əsas məqsədi | Həkiməqədər ilk tibbi yardımın prinsipləri və əsas məqsədləri. Xilasetmə tədbirlərinin ardıcıllığı. İlkin müayinə. Hadisə yerində mənəvi dəstək və təhlükəsizlik. İlk yardım çantası. |
| İnsan orqanizminin quruluşu. Nəfəs və qan- damar sistemləri | Tənəffüs sistemi. Ürək-damar sistemi. Qanaxmaların təsnifatı. Xarici qanaxmaya nəzarət olunması qaydaları. Ikinci dərəcəli müayinə - həyatın vacib əlamətlərinin yoxlanılması. Huş, dəri, gözlər, yumşaq toxumaların zədələnməsi. Sınıqlar. Yanıq zədələri. Hipertermiya (yüksək hərarət), istilikvurma və hipotermiya (donvurma halları). |
| Müəyyən xəsarət almış zərərçəkənə ilk tibbi yardımın göstərilməsi | Huşsuz vəziyyətdə olan zərərçəkmişlə davranış qaydaları. Şəxsi gigiyena üsulları. Sarğının tətbiqi. Süni nəfəs. Ürək və ağ ciyər reanimasiyası. Zərərçəkmiş və şahidlərə verilən suallar. Tənəffüs yollarında yad cisim qaldıqda ilk yardım. Elektrik vurması. Zəhərli ilanların və vəhşi heyvanların dişləməsi zamanı ilk yardım. |

| Modulun adı: | Fiziki hazırlıq |
|---|---|
| Modulun tədris saatı: | 5 saat |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra mühafizə xidməti üçün tələb olunan fiziki hazırlıq ilə bağlı biliklərə yiyələnəcəkdir. | |
| **Mövzular** | **Mövzuların məzmunu** |
| Mühafizəçiyə vacib olan əlbəyaxa döyüş fəndlərinin praktikada öyrədilməsi | Mühafizəçiyə vacib olan əlbəyaxa döyüş fəndlərinin praktikada öyrədilməsi.<br>Əlbəyaxa döyüş fəndlərinin təlimçi tərəfindən öyrədilməsi. Zəruri müdafiə zamanı istifadə olunan fəndlər. Praktiki məşq |
| Silaha qarşı özünü müdafiə | Hücum edəni tərkisilah etmə prinsipləri. Soyuq silaha qarşı özünü müdafiə fəndləri. Odlu silaha qarşı özünü müdafiə fəndləri |
| Xüsusi vasitələrdən istifadə etmə üsulları | Dəyənəkdən istifadə etmə üsulları. Mühafizə olunan obyektə hüquq pozuntusu törətmiş şəxsin saxlanılması zamanı xüsusi vasitələrdən istifadə etmə üsulları |
| Cinayətkarın əl və qollarının əlaltı vasitələrlə bağlanması üsulları və | Mühafizə olunan obyektə hüquq pozuntusu törətmiş şəxsin saxlanılması zamanı qolların və ya ayağının adi |

| | |
|---|---|
| konvoy müşahidəsi | bel kəməri ilə bağlanması üsulları və konvoy müşahidəsi. Praktik məşqlər |

| **Modulun adı:** | **Yanğın söndürmənin əsasları** |
|---|---|
| **Modulun tədris saatı:** | 4 saat |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra mühafizə xidməti üçün tələb olunan yanğın spndürmə fəaliyyəti ilə bağlı biliklərə yiyələnəcəkdir. | |
| **Mövzular** | **Mövzuların məzmunu** |
| Yanğın nəzəriyyəsi. | Yanğın prosesinin ardıcıllığı. Yanma nəzəriyyəsi. Yanğının yayılma yolları: konveksiya, konduksiya, radiasiya |
| Yanğının sinifləri, yanğınsöndürmənin metodları | Yanğınların təsnifatı. A, B, C, D, və F sinifləri. Yanğınsöndürmənin metodları: oksigenin kənarlaşdınlması, istiliyin kənarlaşdırılması, yanar materialın kənarlaşdınlması |
| Müxtəlif yanğın söndürənlərdən istifadə | Yanğının növündən asılı olaraq, müxtəlif odsöndürənlərin istifadəsi: su, köpük, xüsusi quru tozlar, ABC quru toz, C02, duru kimyəvi maddələr |

## 8. Attestasiya və qiymətləndirmə

Təhsil proqramı üzrə attestasiya və qiymətləndirmə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin 13 mart 2019-cu il tarixli KQ-06 nömrəli Kollegiya Qərarı ilə təsdiq edilmiş "Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası" əsasında həyata keçirilir.

Modullar üzrə qiymətləndirmədə test sualları, sual-cavab, praktiki tapşırığı və praktiki keysin həlli kimi qiymətləndirmə üsullarından istifadə edilə bilər.

Təhsil proqramı üzrə attestasiya və qiymətləndirmə prosesindən müvəfəqqiyət əldə edilmiş təhsilalanlar peşə təhsili haqqında sertifikat əldə edəcəkdir.

## 9. Tədris edəcək pedaqoji heyətə qoyulan tələblər

Tədris aparacaq mühəndis-pedaqoji heyət üzvünün müvafiq peşə-ixtisas sahəsi üzrə baza təhsili (ali, orta ixtisas) və ixtisas üzrə stajı (azı 3 il istehsalat və ya pedaqoji təcrübəsi) olmalı, tədris etdiyi modullar baza ixtisasına uyğun gəlməlidir. Təlimçi tələbələr və həmkarları ilə ünsiyyət qurmaq bacarığına, əlaqələndiricilik, istiqamətvericilik, əməkdaşlıq, tədqiqatçılıq, özünü təhsil və idarəçilik bacarığı, öz fəaliyyətini təqdim etmək və qabaqcıl pedaqoji təcrübələrdən bəhrələnmək bacarığı; ədalətlilik, məsuliyyətlilik və cavabdehlik, xüsusiyyətlərinə malik olmalıdır.

Tələbələrin ixtisasları üzrə dövrün tələbatına uyğun elmi-nəzəri bilikli mütəxəssis, tədqiqatçı kimi yetişmələrinə çalışmalı, müasir texnika, yeni istehsal və pedaqoji texnologiyalardan istifadə etmək, innovativ təlim metodlarından, müasir informasiya-kommunikasiya texnologiyalarından istifadə etmək bacarığı aşılamalıdır.

## 10. Tövsiyə edilən dərslik və avadanlıq siyahısı

**Tövsiyyə edilən texniki təchizat və avadanlıq siyahısı:**

Nəzəri dərslərin tədrisi - müxtəlif texniki vasitə (sürətli internet, kompüter və proyektor) ilə təchiz edilmiş sinif otağı

Praktiki dərslərin tədrisi – müvafiq əyani və təlimin texniki vasitələri ilə təchiz edilmiş fənn kabineti

- Xüsusi fiziki hazırlıq və idman dərsləri idman zalı
- Texniki və tibbi hazırlıq məşğələləri bu məqsədlə yaradılmış kabinetlər
- Atəş hazırlığı məşğələləri tirdə həyata keçirilir. edilmiş kitabxana və oxu zalı, akt zalı və yeməkxana fəaliyyət göstərir.

**Tövsiyə edilən dərslik siyahısı:**


1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı,1995.

2. "Qeyri-dövlət (özəl) Mühafizə Fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 10 aprel 2007-ci ii. № 266-IIIQ

3. "İlk peşə - ixtisas təhsili pilləsinin dövlət standartı və proqramı (kurikulumu) , Bakı şəhəri, 23 aprel 2010 – cu il. №77

4. Əsgərov Z.A. "Konstitusiya hüququ". Dərs vəsaiti, Bakı, BDU- nun nəşriyyatı, 2002

5. Səməndərov F.Y. «Cinayət hüququ». Ümuml hissə. Dərslik. Bakı, 2009

6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin Kommentariyası (prof. F.Y.Səməndərov redaktəsi ilə). Bakı, 2009

7. Тишкевич И.С. «Условия и пределы необходимой обороны». М.,19698. Ocaqov H.O. "Fövqəladə hallarda həyat fəaliyyətinin təhlükəsizliyi". Bakı, 2010

9. Ocaqov H.O. "Rəhbər heyətinin fövqəladə hallarda fəaliyyətə və idarəetməyə hazırlanması". Bakı, 2002

10. Ocaqov H.O. "Fövqəladə halların idarəolunması". Bakı, 2008.

11. Cavadov S.C. "Təhlükəsizlik Xidmətinin Əsaslan". Bakı, 2010.

12. Robert J.Fisher & Gion Green, introduction to Security". Seventh Edition. British Library, 2003